*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 103-109* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.103*

# Məhəmməd Füzuli yaradıcılığı Səlim Rəfiq Rəfioğlunun tədqiqatında

**Sevinc Paşayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: seva_111@yahoo.com

**Annotasiya.** Dahi Azərbaycan şairi Məhəmməd Füzuli irsinin araşdırılması mühacirət ədəbiyyatşünaslığında da öz əksini tapmışdır. XX əsrin əvvəllərində ölkədə mövcud ictimai-siyasi hadisələr nəticəsində bir sıra ədəbiyyatşünasların öz fəaliyyətlərini ölkə hüdudlarından kənarda davam etdirmələri nəticəsində ədəbiyyatşünaslığın yeni bir qolu – mühacirət ədəbiyyatşünaslığı formalaşmışdır. Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri də Səlim Rəfiq Rəfioğludur. Gəncədə dünyaya göz açan Səlim Rəfiq Rəfioğlu Türkiyəyə mühacirət edən alimlərimizdəndir. Öz elmi fəaliyyətində Azərbaycan və türk ədəbiyyatının bütün sahələrini araşdıran Səlim Rəfiq Rəfioğlu klassik ədəbiyyata da xüsusi yer ayırmışdır. Onun 1945-ci ildə yazdığı "Füzuli" adlı dissertasiyası Məhəmməd Füzuli haqqında yazılan ilk ciddi və əhatəli əsər hesab edilir. 315 səhifə həcmində olan bu əsər günümüzdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Əsərin makinada yazılmış yeganə nüsxəsi İstanbul Universitetinin Türkiyyat Araşdırmaları İnstitutunun kitabxanasında (şifrə 305) saxlanılır. Əsər 2019-cu ildə kitab şəklində çap olunaraq Azərbaycan ədəbiyyatşünaslarının, füzulişünasların ixtiyarına verilmişdir. Məqalədə Füzulinin dövrü, həyatı, elmi görüşləri, təsiri və şöhrətinin ciddi şəkildə araşdırmaya cəlb edildiyi əsər nəzərdən keçirilir.
**Açar sözlər:** Məhəmməd Füzuli, Səlim Rəfiq Rəfioğlu, ədəbiyyat, mühacirət ədəbiyyatşünaslığı, şair, əsər

**Məqalə tarixçəsi:** göndərilib – 14.02.2023; qəbul edilib – 28.02.2023

# Mahammad Fuzuli creativity in the research of Salim Refig Refioglu

**Sevinj Pashayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: seva_111@yahoo.com

**Abstract.** Study of the legacy of great Azerbaijani poet Mahammad Fuzuli is also reflected in emigration literary studies. At the beginning of the 20th century after the social and political events that took place in the country, as a result of some literary scholars continuing their activities outside the country a new branch of literary sciences – emigration literary studies were formed. One of the prominent representatives of Azerbaijani emigration literature is Salim Refig Refioglu. Salim Refig Refioglu, who was born in Ganja, is one of our scholars who emigrated to Turkey. Salim Refig Refioglu studied all fields of Azerbaijan and Turkish literature in his scientific activity and also paid special attention to classical literature. His dissertation named "Fuzuli", written in 1945, is considered the first serious and comprehensive work written about Mahammad Fuzuli. This work with 315-page is still relevant today. The only typewritten copy of the work (code 305) is kept in the library of the Institute of Turkish Studies of Istanbul University. The work was published into a

book in 2019 and presented to Azerbaijani literary critics and philologists. In the article the work that studied the period, life, scientific views, influence and fame of Fuzuli is reviewed.
**Keywords:** Mahammad Fuzuli, Salim Refig Refioglu, literature, emigration literary studies, poet, work

**Article history:** received – 14.02.2023; accepted − 28.02.2023

## Giriş / *Introduction*

Dahi Azərbaycan şairi Məhəmməd Füzuli irsinin araşdırılması mühacirət ədəbiyyatşünaslığında da öz əksini tapmışdır. XX əsrin əvvəllərində ölkədə mövcud ictimai-siyasi hadisələr nəticəsində formalaşan Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri də Səlim Rəfiq Rəfioğludur.

Elmi fəaliyyətində ədəbiyyatın bütün sahələrini araşdıran Səlim Rəfiq Rəfioğlu klassik ədəbiyyata da xüsusi yer ayırmışdır. Onun "Füzuli" və "Divan ədəbiyyatının məhəlli və ictimai motivləri" adlı əsərləri bu istiqamətdə aparılan araşdırmaların ən gözəl nümunələrindəndir. Səlim Rəfiqin tükənməz söz ustadı Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr etdiyi "Füzuli" adlı doktorluq dissertasiyası şair haqqında yazılan ilk və ən əhatəli tədqiqat əsəri sayılır.

## Əsas hissə / *Main Part*

Dünya ədəbiyyatı tarixində özünəməxsus yer tutan dahi Azərbaycan şairi Məhəmməd Füzuli irsi əsrlər boyu ədəbiyyatşünasların diqqət mərkəzində olmuş, araşdırılmış və araşdırılmaqdadır. Şairin tükənməyən ədəbi irsinin ilk tədqiqatçılarından biri də görkəmli mühacirət ədəbiyyatşünası Səlim Rəfiq Rəfioğludur. Gəncənin məşhur Rəfibəylilər nəslindən olan Səlim Rəfiq Rəfioğlu 1905-ci ildə Gəncədə dünyaya göz açmış, ilk və orta təhsilini də orada almışdır. 1927-ci ildə Gəncə Pedaqoji Texnikumunu bitirdikdən sonra müəllimlik fəaliyyətinə başlamışdır. Lakin Azərbaycanda baş verən siyasi vəziyyətlə əlaqədar Türkiyəyə köçən atası Məşədi Əli Rəfiyevin istəyi ilə sonradan Türkiyəyə mühacirət etmiş, 1930-1931-ci illərdə Türkiyədə İstanbul Universiteti Ədəbiyyat fakültəsi və Yüksək Müəllim məktəbinə yazılmış, 1934-cü ildə hər iki məktəbi bitirmişdir. Universitetdə professor Raqıb Hülusi Özdəmin elmi rəhbərliyi ilə yazdığı "Azərbaycan və Anadolu xalq hekayələrinin təhlili və müqayisəsi" adlı məzunluq dissertasiyası bu gün də öz əhəmiyyətini itirməyən əsərlərdən biridir.

Azərbaycan mühacirət mətbuatını araşdırdığı ilk zamanlarda Səlim Rəfiq imzasıyla tanış olan, lakin haqqında ətraflı məlumat əldə edə bilməyən ədəbiyyatşünas alim Abid Tahirli yazır: "Məqalələri dolğunluğu, orijinallığı, elmiliyi ilə diqqətimi çəkmişdi. Bu gün də zərrə qədər əhəmiyyətini itirməyən həmin məqalələri sadəcə, "Səlim Rəfiq" imzası ilə dərc etdirən müəllifin həyatı, yaradıcılıq yolu barədə illər uzunu səhih, sanballı və əhatəli bir əsər həsrətindəydim" [3].

Uzun illər ədəbiyyatşünasların diqqətindən kənar qalan Səlim Rəfiq Rəfioğlunun ailə şəcərəsi, həyat yolu və elmi fəaliyyəti ilk dəfə türkiyəli tarixçi Ömər Özcan tərəfindən araşdırılmış və "Səlim Rəfiq Rəfioğlu (soyu, mühiti, təhsili, müəllimliyi, yaradıcılığı)" adlı monoqrafiya çap etdirilmişdir.

Abid Tahirli Səlim Rəfiqin ailə şəcərəsinin 200 illik tarixinin, enişli-yoxuşlu həyat yolunun işıqlandırıldığı monoqrafiyada yalnız tarixi və rəsmi sənədlərə istinad edildiyini vurğulayır: "Səriştəli tədqiqatçı Ömər Özcan Səlim Rəfiq Rəfioğlunun və onun ailəsinin tarixini yazarkən mənbələri diqqətlə araşdırmış, müxtəlif məxəzlərdə rastlaşdığı fakt və rəqəmləri tutuşdurmuş, sənədlərin səhihliyinə, sanballılığına diqqət yetirmiş, nəticədə mükəmməl əsər ərsəyə gətirmişdir" [3].

Monoqrafiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 23 yan-

var 2013-cü il tarixli qərarı ilə Bakıda “Elm və Təhsil” nəşriyyatında çap olunaraq elmi ictimaiyyətin ixtiyarına verilmişdir.

Səlim Rəfiq Rəfioğlunun 1942-1945-ci illərdə professor Əli Nihad Tərlanın rəhbərliyi ilə yazdığı “Füzuli” adlı əsər Füzuli haqqında yazılan ilk doktorluq dissertasiyası sayılır. Əsərin makinada yazılmış yeganə nüsxəsi İstanbul Universitetinin Türkiyyat Araşdırmaları İnstitutunun kitabxanasında (şifrə 305) saxlanılır [2, s.9].

Füzulişünasların böyük marağına səbəb olan “Füzuli” adlı bu dəyərli dissertasiya əsəri Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 dekabr 2018-ci il tarixli (protokol №15) qərarına əsasən 2019-cu ildə akademik İsa Həbibbəylinin baş redaktorluğu ilə çap olunaraq elmi ictimaiyyətə təqdim edilmişdir. Cildin məsul redaktoru institutun “Azərbaycan mühacirət ədəbiyyatı” şöbəsinin müdiri, filologiya elmləri doktoru Nikpur Cabbarlıdır.

Bugünkü füzulişünaslığımız üçün aktuallığını qoruyub saxlayan bu əsəri əlyazma əsasında nəşrə hazırlayan və “Səlim Rəfiq Rəfioğlu və onun “Füzuli” araşdırması” adlı əhatəli ön söz və “Qeydlər və şərhlər” başlıqlı bölmənin müəllifi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Füzulişünaslıq” sektorunun müdiri, füzulişünas alim, filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir.

A.Mirzəyev “Füzuli” əsərinə yazdığı ön sözdə S.R.Rəfioğlunun çoxcəhətli və zəngin elmi irsində mühacirət ədəbiyyatşünaslığının bütün mövzu və problematikasının əksini tapdığını, folklor və klassik irslə bağlı məsələlərə xüsusi yer verildiyini diqqətə çatdırır.

A.Mirzəyev S.R.Rəfioğlunun klassik Azərbaycan ədəbiyyatının tədqiqinə həsr etdiyi 315 səhifə həcmli “Füzuli” və 680 səhifə həcmində olan “Divan ədəbiyyatının məhəlli və ictimai motivləri” əsərlərini klassik irsimizin yeni bir istiqamətdə öyrənilməsində ilk və ən sistemli araşdırma kimi dəyərləndirmişdir.

Səlim Rəfiqə qədər İstanbul və Ankara Universitetlərində Füzuliyə həsr olunmuş bir sıra məzunluq və doktorluq dissertasiyalarının yazıldığını qeyd edən A.Mirzəyev alimin “Füzuli” adlı dissertasiyasının öz problematikasına görə digərlərindən seçildiyini bildirir və dissertasiyanın professor Əli Nihad Tərlanın rəhbərliyi ilə yazılmasını əsərin yüksək elmi səviyyədə olmasının əsas səbəblərindən biri kimi dəyərləndirir.

Səlim Rəfiq özü də dissertasiyada bu mövzuya toxunur: “Füzulinin həyatı Əbdülqadir Qaraxanın tezində də ələ alınmışdır. Fəqət iki tez arasında yeganə müştərək bəhs olan bu konu, diqqətlə mütaliə və müqayisə ediləcək olursa, bir-birinin eyni olmadığı və arada bizim tezin lehinə olaraq metod, mövzunun əhatəsi, malzəmə bolluğu və vəsiqələrin məbzuliyyəti, qəza maddələrin təfsilatı və yeni qeydlərin əlavəsi baxımından bir xeyli fərq bulunduğu dərhal gözə çarpar” [1, s.1].

A.Mirzəyev Səlim Rəfiqin “Füzuli” əsərini şairin dövrü, həyatı, elmi görüşləri, eşqi, təsiri və şöhrətinə həsr edilmiş ilk ciddi və əhatəli bir əsər kimi günümüzdə də öz aktuallığını qoruyub saxladığını qeyd edir.

Əsər “Füzulinin həyatı”, “Füzulinin elmi”, “Füzulinin eşqi”, “Füzulinin təsiri və şöhrəti” adlı dörd fəsildən və “Biblioqrafiya”dan ibarətdir. Səlim Rəfiq dissertasiyaya “Füzulinin biblioqrafiyası” bölməsini əlavə etməsini belə izah edir: “Tezimin mövzusu Füzulinin dövrü, həyatı, bu meyanda mənəvi şəxsiyyəti, elmi, eşqi, şöhrəti və təsiridir. Kitabiyyatsız tədqiq yapılamayacağı və biblioqrafiyasız tez yazılmayacağı üçün, əsərin sonuna belə bir fəsil ekləməyi faydalı bulduk” [1, s.1].

Səlim Rəfiq əsərin “Füzulinin həyatı” adlı birinci fəslini Füzulinin əsərləri, təzkirələr və əldə etdiyi digər qaynaqlar əsasında tərtib etmişdir. Müəllif ən qədim qaynaqlar əsasında tərtib etdiyi fəsli “Füzulinin dövrü və mühiti”, “Füzulinin həyat yolu”, “Adı”, “Doğum tarixi”, “Doğum yeri”, “Füzulinin atası”, “Füzulinin oğlu Fəzli”, “Məxləsi”, “Füzuli kəlməsinin yeni hərflərlə yazılış şəkli”, “Füzuli haqqında rəvayətlər”, “Füzulinin ölüm tarixi”, “Füzulinin öldüyü yer”, “Rəsmi”, “Füzulinin mənəvi şəxsiyyəti”, “Füzulinin milliyyəti” adlı yarımfəsillərə bölmüşdür.

“Füzulinin dövrü və mühiti” yarımfəslində şairin yaşadığı dövr və mühit haqqında ətraflı məlumat verən Səlim Rəfiq “Füzulinin həyat yolu” yarımfəslində şairin həyatı haqqında yetərincə məlumat əldə edə bilmədiyini qeyd edir. Təəssüflə Füzulinin həyatı haqqında az məlumatın olduğunu bildirir və bunun səbəbini şairin dövrün hakimlərinin onun yaradıcılığını layiqincə

qiymətləndirmədikləri ilə izah edir. Tədqiqatçı şairin həyatını mümkün qədər işıqlandıra bilmək üçün ən qədim qaynaqlardan istifadə etmiş və bu qaynaqları üç hissəyə böldüyünü bildirmişdir.

S.Rəfiq "Adı" başlıqlı yarımfəsildə şairin adı ilə bağlı beş qeydə rast gəldiyini və son olaraq "Məhəmməd" adının üzərində dayandığını bildirir. Ataəmi Mirzəyev Səlim Rəfiqin şairin adı ilə bağlı çox əhəmiyyətli ilkin qaynaqlara istinad etdiyini yazır: "Müəllif bununla bağlı son dərəcə geniş və ilkin qaynaqlara dayanan məlumatları təqdim edir ki, biz Füzuli ilə bağlı tədqiqatların heç birində, hətta Əbdülqadir Qaraxanın "Füzuli: mühiti, həyatı və şəxsiyyəti" kitabında da onlara rast gəlmirik" [2, s.10].

Səlim Rəfiq şairin doğum tarixi ilə bağlı altı rəqəm olduğunu və son olaraq 1494-cü ili qeyd etdiyini; şairin doğum yeri ilə bağlı fikirləri uzlaşdırdıqdan sonra şairin öz əsərlərindəki qeydlərə istinadən onun Kərbəlada anadan olduğu fikrini dəstəklədiyini; şairin atası, oğlu, təxəllüsü, milliyyəti, ölüm tarixi, ölüm səbəbləri haqqında araşdırma apararkən mövcud rəvayət və qaynaqları təhlil edərək son gəldiyi qənaətləri təqdim etdiyini bildirir. Qeyd edək ki, alim əsərdə şairin ölüm tarixi ilə bağlı müxtəlif mənbələrdə yeddi müxtəlif tarixə rast gəldiyini bildirir və apardığı araşdırma nəticəsində Əhdi Bağdadinin "Gülşənüş-şüəra" təzkirəsində qeyd olunan h.963-cü (m.1556) ilin üzərində dayanır.

"Füzulinin elmi" adlı ikinci fəsildə şairin türkcə divanından sitat gətirən Səlim Rəfiq yazır: "Füzulinin üzərində durulması lazım gələn cəbhələrindən (tərəflərdən) biri də elmidir. Zira Füzuli əsərlərindən anlaşıldığı vəchlə yalnız şair deyil, eyni zamanda alimdir. Bu cəhəti təyin edəcək (gücləndirəcək) başqa tarixi vəsiqələrə də malikiz" [2, s.146].

A.Mirzəyev bu fəsildə şairin müxtəlif elm sahələri ilə bağlı görüşlərini nəzərdən keçirən Səlim Rəfiqin ilk olaraq elmləri islam alimlərinə görə təsnif etdiyini, onları əqli və nəqli elmlərə böldüyünü və sonra Füzulinin elmi görüşlərini şərh etdiyini bildirir. Füzulinin yaradıcılığında elm və əxlaq münasibətlərini geniş şəkildə tədqiq və təhlil edən alim şairin dilçilik görüşlərinə də diqqət yetirmiş və dilçiliyin nəzəri məsələləri ilə bağlı fikirlərini şərh etmişdir.

Füzulinin yaradıcılığını tədqiq edən Səlim Rəfiq şairin ədəbiyyatın bütün nəzəri məsələlərinə və bütünlüklə ərəb, fars və türk ədəbiyyat tarixinə dərindən bələd olduğunu qeyd edir. Füzulinin farsca "Divan"ından sitat gətirən Səlim Rəfiq şairin bu sahədə göstərdiyi səylər nəticəsində alimlərlə mübahisə edə biləcək qüdrətə sahib olduğunu da nəzərə çatdırır.

Görkəmli füzulişünas A.Mirzəyev yazır: "Bütün bunlar bir daha təsdiqləyir ki, Səlim Rəfiq dissertasiyanın ikinci fəslində də ilk dəfə olaraq Füzulinin elmi görüşlərini toplu halında tədqiqata cəlb etmiş, şairin yaradıcılığını müxtəlif elm sahələrinə nə dərəcədə bələd olması baxımından birər-birər araşdırmış, orijinallığı ilə seçilən bir əsər ərsəyə gətirmişdir" [2, s.15].

A.Mirzəyev, eyni zamanda S.Rəfiqin özünün də bu elm sahələrinə bələd olduğunu qeyd edir: "Füzulinin elmi görüşlərinin şərhinə həsr edilmiş bu fəsil, eyni zamanda Səlim Rəfiqin də həmin elm sahələrinə bələd olduğunu göstərir. Çünki həmin elm sahələrinə bələd olmadan şairin elmi görüşlərini araşdırmaq mümkün deyil" [2, s.15].

Dissertasiyanın üçüncü fəsli "Füzulinin eşqi" adlanır. Təsadüfi deyil ki, Füzuli dünyada eşq şairi kimi tanınır. A.Mirzəyev də Füzulini gözəllik, eşq və məhəbbət şairi adlandırır və hər şeyin səbəbini, başlanğıcını, əsasını və mənasını eşqdə gördüyünü qeyd edir.

S.Rəfiq dissertasiyada çox geniş yer ayırdığı Füzuli eşqinin XVI əsrdən XX əsrə qədərki zaman çərçivəsində diqqətdən kənar qaldığını, XX əsrin əvvəllərində Mister Gibb, Edmond Fazy, Ş.Süleyman, Basmadjian, prof. Krımski, prof. F.Körpülü və sair tədqiqatçıların bu mövzüya toxunmasına baxmayaraq, ciddi tədqiq edilmədiyini bildirir: "Fəqət bunlar, ümumiyyətlə, ciddi araşdırmalara dayanmazlar; çox zaman sadə, əskik, hətta bəzən yanlış və əksəriyyətlə birtərəfli olaraq qalmışlar. Füzulinin eşqi haqqında mövcud olan bütün qeydlər incələndiyi təqdirdə bunları görməmək mümkün deyildir" [2, s.247].

"Füzulinin şeirlərində eşqin bütün təcəllisinə və bütün motivlərinə təsadüf etmək mümkündür. O, eşqi sistemləşdirməkdən ziyadə tərənnüm etmişdir. Fəqət bu tərənnüm şairdəki xüsusiyyət və səmimiyyətin bariz ifadələri ilə doludur. Füzulinin həyatı, ümumiyyətlə, eşq havası içində keçmiş və həmən-həmən daima eşqdən

bəhs etmişdir", – deyən Səlim Rəfiq daha sonra yazır: "Füzuli ruhunun ən böyük zövqünü eşqdə bulmuşdur. Eşq və gözəllik bir-birini tamamlayan iki ünsürdür. Eşq ilə hüsn ruh ilə bədən kimidir. Eşq qəlbin ruhu və həyatın qayəsidir. Həqiqi səadət sevgilinin məsud olduğunu bilməkdir. Eşqsiz keçən ömür boşa getmişdir. Gözəlsiz yaşamanın mənası yoxdur. Əvət, eşq və gözəl. Şair həyatda ən çox bunlarla məşğul olmuşdur. O, qəlbi ilə baş-başa qaldığı və ruhunun səsini dinlədiyi zamanlar həp eşq havası tənəffüs etmişdir" [2, s.16; 3, s.164].

Əsərdə S.Rəfiqin Füzuli yaradıcılığına dair bu fikirlərini diqqətə çəkən A.Mirzəyev Füzulinin lirikasında eşq ilə hüsnün vəhdətdə verildiyini təsdiq edir: "Füzuli lirikasında eşq ilə hüsn vəhdətdə verilmişdir. Sevgili gözəlliyi, yəni hüsnü təmsil edir. Hüsn nə qədər çox olarsa, eşq də o qədər artıq olar. Şairin lirikasındakı bu cəhətləri nəzərə alan Səlim Rəfiq dissertasiya işində Füzuli şeirində təsvir edilən sevgilinin portretini çeşidli yönləri ilə canlandırmağa çalışmışdır" [2, s.16].

A.Mirzəyev Füzulinin yaradıcılığında sevgilinin gözəlliyinin təsvir və tərənnümünün hədsiz-hüdudsuz olduğunu, tədqiqatçının şairin divanını çox diqqətlə araşdırdığını və orada zərgər dəqiqliyi ilə seçdiyi nümunələr əsasında şairin sevgilisinin bənzərsiz gözəlliyinin təsviri üçün istifadə etdiyi bir-birindən mükəmməl və çeşidli məcazları sistemli şəkildə bütün təfsilatı ilə təqdim etdiyini bildirir və fəsildən nümunələr göstərir.

Səlim Rəfiq "Füzuli eşqi" adlı fəsildə Füzuli eşqi ilə bağlı fikrini yekunlaşdırır: "Füzuli ciddən (həqiqətən) böyük bir aşiqdir. Bu hal onu məğrubi-cahan və məhbubi aşiqan yapdı. Qədimlər ona "inamül-aşiqin" dedilər. O, həqiqətən, aşiqlərin imamıdır. Deyilə bilər ki, Füzuli eşqi, eşq də Füzulini layəmut (ölməz, əbədi) yapmışdır" [2, s.265].

Əsərin "Füzulinin təsiri və şöhrəti" adlı dördüncü fəslində XVI əsrdən XX əsrə qədər olan zaman çərçivəsində şairin qazandığı şöhrət və ədəbi mühitə təsiri araşdırılmışdır. "Bir şairin böyüklük dərəcəsini təyin edən ən mühüm amillərdən birisi də şöhrəti və təsiridir. Sənətkarın dəyəri sənətinin oyandırdığı əlaqə dərəcəsilə ölçülür. Şairin qiyməti əsərlərinin təmin etdiyi intişar sahəsinin genişliyi və şöhrətinin davamlı olması nisbətində artar. Binaənəleyh əskilər haqqında əsər yazarkən bu cəhətə xüsusi bir önəm verməк icad edər. Əks təqdirdə, şairin həqiqi dəyəri anlaşılmaz" [2, s.266], – deyən tədqiqatçı o dövrə qədər Füzuliyə dair belə bir araşdırma aparılmadığını qeyd edir və fəsildə şairin yaradıcılığının əsrlər üzrə tapdığı şöhrəti, dövrünün və özündən sonra gələn şair nəslinə təsirini aydın şəkildə təqdim edir.

Tədqiqatın bu fəslindən söz açan A.Mirzəyev S.Rəfiqin Füzulinin türk ədəbiyyatına təsirini sistemli şəkildə araşdırdığını, müxtəlif müəlliflərin Füzuliyə yazdığı nəzirələrin, tənzir və təxmisləri nəzərdən keçirildiyini bildirir və fəsildə verilən bu hissənin Füzuli təsirini əyani şəkildə göstərən fakt zənginliyi ilə xüsusi seçildiyini qeyd edir. A.Mirzəyev Füzuli irsinin Qərb ölkələrində tədqiqi və tanınması üzərində dayanan S.Rəfiqin şairin şeirlərinin Avropa dillərinə tərcümə olunaraq yayılması məsələsinə də toxunmuş, Füzulinin türk dünyasının ən çox sevilən söz ustadı olduğunu qeyd etmişdir.

Füzulinin ilk biblioqrafik göstəricisinin tərtibçisi də məhz Səlim Rəfiq Rəfioğludur. Füzuli yaradıcılığının tədqiqi zamanı heç bir biblioqrafik göstərici əldə edə bilməyən Səlim Rəfiq çəkdiyi əziyyətləri nəzərə alaraq, şairin biblioqrafiyasını tərtib edir. Özündən sonra gələn tədqiqatçıların işini asanlaşdırmaq məqsədilə göstəricini dissertasiyanın sonunda yerləşdirir.

S.R.Rəfioğlu əsərin sonuna "Biblioqrafiya" adlı daha bir bölüm əlavə etmişdir. O, bu bölümü tərtib etməsinin səbəbini "Biblioqrafik izahat" başlıqlı yazısında belə izah edir: "Füzulini tədqiq mövzusu olaraq aldığım zaman üsulən hər şeydən əvvəl biblioqrafiya üzərində durdum. Bu xüsusda şimdiyə qədər maləsəf ən kiçik bir yazı belə nəşr edilmədiyindən şairin kitabiyyatını vücuda gətirmək məcburiyyətində qaldım. Lakin bu iş kolay olmadı. Bir çok zorluqlarla qarşılaşdım" [2, s.374]. Səlim Rəfiq tərtib etdiyi biblioqrafiya haqqında yazır: "Binaənəleyh yüzlərcə əsəri bir arada göstərən Füzuli kitabiyyatının tam və əksiksiz olduğunu iddia edəməm. Bununla bərabər, hazırladığım biblioqrafiyaya bundan öylə pək az şey qatıla biləcəyini və bunların da daha ziyadə təsadüflərə bağlı olacağını və şairi bilxassə təsiri və şöhrəti baxımından əlaqədar edəcəklərini söyləyə bilirim" [2, s.375].

Əsərin sonunda yer alan “Biblioqrafiya” bölümü “Biblioqrafik izahat” və “Füzulinin biblioqrafiyası” bölümlərindən ibarətdir. “Biblioqrafik izahat” bölümündə Səlim Rəfiq Füzuli haqqında topladığı ədəbiyyatı mahiyyətinə görə 25 istiqamətdə təsnifləndirmiş və hər birinin açıqlamasını vermişdir.

Səlim Rəfiq “Füzulinin biblioqrafiyası” bölümündə şair haqqında əldə etdiyi bütün kitab, məqalə və məlumatları əlifba sırası ilə tərtib edərək oxucuların ixtiyarına vermişdir.

Əsərin Azərbaycanda kitab şəklində çap olunan nüsxəsinin sonunda füzulişünas alim Ataəmi Mirzəyevin “Qeydlər və şərhlər” başlıqlı yazısı yer alır. O, burada Səlim Rəfiqin tədqiqata cəlb etdiyi 1924-cü ildə İstanbulda çap edilmiş “Külliyyati-Füzuli” kitabından verdiyi nümunələrlə türk divanının görkəmli alim Həmid Araslı tərəfindən tərtib edilmiş Bakı nəşrindəki eyni beytləri müqayisə etmiş, əldə etdiyi əsas fərqləri oxuculara və Füzuli tədqiqatçılarına təqdim etmişdir.

## Nəticə / *Conclusion*

Böyük təəssüflə qeyd etməliyik ki, Azərbaycan mühacirət ədəbiyyatşünası Səlim Rəfiq Rəfioğlu və onun dahi Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında zəngin və əhatəli “Füzuli” əsəri uzun illər Azərbaycan ədəbiyyatşünaslığına məlum olmamışdır. “Füzuli” əsəri bu gün də füzulişünaslıq elmi üçün dəqiq mənbələrə əsaslanan əhəmiyyətli və zəngin tədqiqat mənbəyidir.

Şübhəsiz ki, “Füzuli” kitabı Füzuli irsinin gələcək araşdırmaları üçün əhəmiyyətli istinad mənbəyi olacaqdır.

## Ədəbiyyat / *References*


1. Refioğlu, S. Füzuli. İstanbul Universitesi Edebiyat Fakültesi, doktora tezi. – İstanbul, 1942-1945.
2. Rəfioğlu, S. Füzuli. – Bakı: Elm və təhsil, 2019.
3. Tahirli, A. Səlim Rəfiq və ailəsi haqqında salnamə. – “525-ci qəzet”, 04.08 2014.


# Творчество Мохаммед Физули в исследовании Салим Рафига Рафиоглу


**Севиндж Пашаева**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: seva_111@yahoo.com



**Резюме.** Изучение наследия великого азербайджанского поэта Мохаммеда Физули нашло отражение и в эмигрантском литературоведении. В начале XX века, вследствие происшедших в стране общественно-политических событий, ряд литераторов был вынужден продолжить свою деятельность за пределами страны, в результате чего в литературоведении сформировался новый вид – эмигрантское литературоведение. Салим Рафиг Рафиоглу один из видных представителей азербайджанского эмигрантского литературоведения. Уроженец Гянджи, учёный эмигрировал в Турцию. Научная деятельность Салим Рафига Рафиоглу заключалась, кроме всех областей азербайджанской и турецкой литературы, особенно в исследовании классической литературы. Написанная им в 1945 году диссертационная работа под названием «Физули» считается первым серьёзным и разносторонним исследованием о Мохаммеде Физули. Этот труд, составляющий 315 страниц, и в наше время сохраняет свою актуальность. Единственный машинописный экземпляр данного труда (шифр 305) хранится в библиотеке Института Турецких Исследований Стамбульского Университета. В 2019 году этот труд был издан в виде книги и представлен на суд азербайджанских литературоведов и физуливедов.

В данной статье привлечено серьёзное внимание к этой книге, содержащей сведения об эпохе, жизни, научных взглядах, влиянии и славе Физули.

**Ключевые слова:** Мохаммед Физули, Салим Рафиг Рафиоглу, литература, эмигрантское литературоведение, поэт, произведение